Ədəbiyyat qəzeti

7 fevral 2025-ci il 7 №5

# "Onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı qədər də ola bilməzlər"

Son günlər mediada, sosial şəbəkələrdə bəzi adamlar klassiklərimizə, görkəmli ədiblərimizə hədyanlar yağdırırlar. Onları az qala xalq düşməni elan edirlər. Belələrinə ən gözəl cavabı Xalq şairi Süleyman Rüstəmin 90 illik yubiley tədbirində Ulu öndər Heydər Əliyev vermişdi. Heydər Əliyevin çıxışındakı o vacib məqamları xatırlamaq yerinə düşər.

Heydər Əliyev: "İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xatalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm".

H.Əliyev çıxışının davamında keçmişimizi inkar edənləri, ləyaqətli ziyalılarımıza ləkə yaxanları "düşmən", "nankor" və "nadürüst" adlandırır və cəmiyyətimizi belələrindən qorumağı tövsiyə edir. Deyir ki,"Əgər, kimsə 80-ci illərin axırlarında, 90-cı illərin əvvəllərində tariximizin böyük bir hissəsini cırıb atmaq istəyirdisə və bəzən onlar buna nail olurdusa, özləri heç bir xidmət etməmiş adamlar xalqa sədaqətlə xidmət etmiş insanları aradan çıxarmağa çalışırdılarsa, bunlar keçici bir şeydir. Gördünüz ki, onlar keçdilər, getdilər. Bu gün onu deyə bilərəm ki, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır. Belə adamların özləri xalq, millət, ölkə üçün heç bir şey etməyiblər. Əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı qədər də ola bilməzlər".

**AYB Mətbuat Xidməti**